## Prezident İlham Əliyev:

# Biz bu tarixi yaddan çıxarmamalıyıq




Azərbaycan Prezidenti İlham Əliyev bir neçə gün əvvəl Sumqayıt şəhərinin 70 illiyi ilə bağlı keçirilən tədbirdə böyük nitq söyləyib və nitqində bir çox aktual məsələlərə toxunub. Müstəqilliyimizin ilk illərində hakimiyyətin savadsız, siyasətdən, dövlət idarəetməsindən xəbəri olmayan, hətta Vətənə xəyanət yolu tutmuş adamların əlinə keçməsi faciələrimizin miqyasını daha da genişləndirirdi. Dövlətimizin başçısı bildirib ki, biz tarixi yaddan çıxarmamalıyıq və gənclər bu tarixi bilməlidirlər. Bugünkü reallıqları düzgün təhlil etmək, reallıqlara düzgün qiymət vermək üçün biz bu acı dövrü yaddan çıxarmamalıyıq. Elə etməliyik ki, gənclər də bunu bilsinlər, hesab etməsinlər ki, bugünkü inkişaf və tərəqqi göydən düşüb. Qoy onlar bilsinlər ki, buna qanımız, canımız bahasına nail olmuşuq. Biz tariximizin ən rüsvayçı səhifələrini də vərəqləməliyik. Ona görə ki, o rüsvayçı dövr bir də təkrarlanmasın.

Prezident AXC-Müsavat cütlüyünün hakimiyyətdə olduğu dövrə işarə edərək bildirib ki, 1992-ci ildə hakimiyyəti silahlı çevriliş yolu ilə qəsb edən antimilli dəstə Azərbaycanı uçurumun bir addımlığına aparıb çıxardı. Həm Ermənistanla müharibədə, həm də ölkənin daxilində vəziyyət son dərəcə təhlükəli şəkil almışdı. Ölkəmizdə müxtəlif cinayətkar qrupların və hakimiyyət hərislərinin daxildə vəziyyəti gərginləşdirməsindən istifadə edən Ermənistan ordusu torpaqlarımızı işğal edirdi. "Yenicə bərpa edilmiş müstəqillik əldən gedirdi, ölkədə xaos, anarxiya, talançılıq, oğurluq, özbaşınalıq, böhran hökm sürürdü. Ermənilər orada torpaqlarımızı işğal edirdilər, Xalq Cəbhəsi isə vətəndaş müharibəsinə start vermiş və Gəncə şəhərini bombalamağa başlamışdı. Vətəndaş müharibəsi ən ağır müharibədir. Çünki qardaş qanı axıdılır. Ona da getdilər ki, öz laxlamış hakimiyyətlərini qoruya bilsinlər. Görəndə ki, qoruya bilmirlər, Heydər Əliyevə müraciət etdilər ki, gəl, bizi xilas elə. Yalvarırdılar. Mən bunun şahidiyəm. Üç dəfə təyyarə göndərmişdilər ki, bizi xilas elə..."

Xatırladaq ki, AXC-Müsavat hakimiyyətinin Gəncədə keçirdikləri "Tufan əməliyyatı" məğlubiyyətlə nəticələnəndən sonra Prezident Əbülfəz Elçibəy, baş nazir Pənah Hüseynov, Ali Sovetin sədri İsa Qəmbər və başqa yüksək postlar tutan adamlar tamamilə aciz vəziyyətdə qaldılar. Gəncədə girov götürülən baş prokuror İxtiyar Şirinov Prezident Əbülfəz Elçibəyin həbsinə sanksiya verdi.

Səbr kasası dolan xalq ayağa qalxaraq böyük dövlət xadimi, dünyada tanınmış siyasətçi və mahir diplomat Heydər Əliyevin hakimiyyətə gəlməsini dəfələrlə təkidlə tələb etdi.

Həmin günlərdə Surət Hüseynovun təpədən-dırnağadək silahlanmış briqadası Bakı üzərinə hücuma keçdi. Üsyançı hərbi hissənin döyüşçüləri rayon mərkəzlərinə soxulur, icra hakimiyyətinin başçılarını və digər vəzifəli şəxsləri döyür, öldürür, təhqir edir və qovurdular. Surət Hüseynov onların yerinə öz adamlarını "təyin" edirdi. Bakıda ciddi gərginlik yaranmışdı. Qiyamçı polkovnikin dalbadal göndərdiyi ultimatumlardan qorxan bəzi vəzifəli adamlar taladıqları sərvətləri də götürüb xaricə qaçırdılar. Nəhayət, bir qiyamçının tələblərinə boyun əyən Azərbaycanın rəhbərləri siyasi meydandan rüsvayçılıqla getməli oldular. Baş nazir Pənah Hüseynovla Ali Sovetin sədri İsa Qəmbər istefa verəndən bir neçə gün sonra Prezident Əbülfəz Elçibəy heç kəsə heç bir məlumat vermədən Naxçıvana - doğulduğu Kələki kəndinə getdi.

Xalqın tələbi ilə Ümummilli Liderimizin ikinci dəfə hakimiyyətə gəlməsi ilə Azərbaycanda yaranmış təhlükəli hərbi, siyasi və ictimai vəziyyət olduqca qısa müddətdə sabitləşdirildi. Bu barədə danışan Prezident İlham Əliyev vurğuladı ki, "Heydər Əliyevin hakimiyyətə gəlməsi, əlbəttə ki, tarixi hadisədir. Bu gün biz onun yolu ilə gedirik. Onun yürütdüyü siyasət bu gün yaşayır, zənginləşir. Qarşımızda yeni çağırışlar, yeni vəzifələr durur və biz bu vəzifələri icra edirik."

Görülən işlər, həyata keçirilən nəhəng iqtisadi layihələr onu göstərir ki, ulu öndərimiz Heydər Əliyevin memarı olduğu müstəqil Azərbaycan dünyaya Günəş kimi doğur...

**Vəli İlyasov,**
***"İki sahil"***